# Atamla bağlı xatirələr



**Sergey Lvoviç Tolstoy**

## DÖRDÜNCÜ HİSSƏ

### I FƏSİL

1874-cü ildə Peterburqa II Aleksandrın qızı Mariya Aleksandrovnanın nişanlısı şahzadə Alfred Edinburqski gəlmişdi. Tolstoy Vronskinin müşayiət etdiyi əcnəbi şahzadə deyəndə məhz onu nəzərdə tuturdu.

### II FƏSİL

Ayı ovundan qayıdan Levin arşınla ayı dərisini ölçürdü. Tolstoy 1859-cu ildə ayı ovuna çıxmışdı. Dekabrın 21-də Tolstoy ayı öldürmüş, 22-də isə onu yaralı dişi ayı gəmirmişdi. Amma onu da bir başqa ovçu öldümüşdü. Bi haqda onun hekayəsi də var. Bu dişi ayının soyulmuş dərisi Yasnaya Polyanada, sonradan isə Xamovnikidəki evində idi.

### VII, IX FƏSİLLƏR

Stepan Arkadyeviç nahara "məşhur entuziast, liberal, çoxdanışan, musiqiçi, tarixçi və çox xoşxasiyyət olan əlli yaşlı gənc Peststovu dəvət etmişdi". Pestsovda slavyanpərəst, poeziya və incəsənət aşiqi, Rus sözçülüyü cəmiyyətinin sədri və "Rus fikri" jurnalının redaktoru S.A.Yuryevin (1821-1888) bəzi xüsusiyyətlərini görmək olar. O da eynən Pestsov kimi qadınların təhsil almasının tərəfində idi. Pestsovun slavyanpərəst olması onun da Yuryev kimi kənd icmasında kollekivlik görməsində idi. Romanın qaralama versiyalarında Pestsovun adı Yurkin gedir. Pestsovda həmçinin məşhur tənqidçi və sənətşünas V.V.Stasovun da xüsusiyyətləri sezilir.

### X FƏSİL

Xalq Maarifi naziri Dmitri Andreyeviç Tolstoy 1871-ci ildə yeni gimnaziya ustavı keçirmişdi. Ustava görə, klassik gimnaziyalarda yunan və latın dillərinin tədrisi artırılmış, təbii elmlərsə çıxarılmışdı. Bu cür proqram nihilizmlə mübarizə üçün çox yaxşı sayılırdı. Rus cəmiyyətində D.A.Tolstoyun reformları böyük mübahisələr doğrumuşdu. Və bu mübahisələrin çox ona qarşı idi. Oblonskinin qonaqlarla söhbəti də məhz elə bu reformalar barədədir.

### XIII FƏSİL

Levin ürək sözlərini Kitiyə həmin sözlərin baş hərflərini yazmaqla bildirmişdi. Kiti bu hərflərə görə həmin sözlər tapmışdı.

Eyniylə bu cür məktublaşma Lev Nikolayeviçlə Sofya Andreyevna arasında olmuşdu. Bu haqda o gündəliyində yazmışdı. T.A.Kuzminskaya bunun necə baş verdiyini "Mənim evdəki və Yasnaya Polyanadakı həyatım" kitabında qeyd edib. O zamanlar on beş yaşlı qızcığaz olan Kuzminskaya ona mahnı oxutdurmasınlar deyə fortepianonun altında gizlənmiş və bu söhbəti eşidibmiş. Kitabda bunları yazıb: "L.Nikolayeviç və Sonya otağa daxil oldular. L.Nikolayeviç ondan soruşdu: Sofya Andreyevna, ancaq baş hərflərini yazdığım sözləri tapa bilərsinizmi? Sonya onun gözlərinin içinə baxa-baxa qətiyyətlə "bəli, tapa bilərəm" - dedi. Tolstoy ona bəzi sözləri tapmağa kömək etmişdi. Sözlər bunlar idi: "Sizin bu gəncliyiniz, xoşbəxt olmaq arzunuz mənə qocalığımı və xoşbəxtliyimin mümkünsüzlüyünü xatırladır". Daha sonra L.Tolstoy bu fikrin baş hərflərini yazır: "Sizin ailənizdə mənə və bacınız Lizaya qarşı yalnış fikirlər var. Bacınız Tanyayla məni qoruyun". Sofya Andreyevna bu sözləri də tapa bilmişdi. T.A.Kuzminskayanın Lev Nikolayeviçin bəzi sözləri açmasıyla bağlı qeydi Sofya Andreyevnanın qeyri-adi bəsirətliyini müəyyən qədər zəiflədir. Hansı sözləri tapmaqda köməklik göstərdiyi isə naməlum qalır. Romanda bu cür qeydə rast gəlinmir.





### XIV-XVI FƏSİLLƏR

Bu fəsillər avtobioqrafikdir. Knyaz Şerbatskinin toyla bağlı sualına Levin belə cavab verir: "...məncə, indi xeyir-dua alırıq, sabahsa toy mərasimi olacaq. - Mon cher, boş şeylərdir! - Yəqin ki, bir həftədən sonra".

Tolsoy toyqabağı nişanlısının valideynlərinə təxminən elə belə bir cavab vermişdi. Onun təklifinə razılığı 1862-ci ilin 16 sentyabrında verirlər, toy isə bir həftə sonra sentyabrın 23-də baş tutur.

Levinin onun qədər təmiz olmaması və ateistliyiylə bağlı etirafları da avtobioqrafikdir. Levin də eynən Tolstoy kimi xanımına subaylığında yazdığı gündəliyini vermişdi. Onun da xanımı eynən Sofya Andreyevna kimi bu gündəliyi oxuyub məyus olmuşdu.

### XVI FƏSİL

**Fuld - Moskvanın məşhur zərgəri.**

### XVII FƏSİL

Annanın doğuş qızdırması da Sofyanın qızı Mariya dünyaya gələndə (12 fevral 1871-ci il) keçirdiyi qızdırma kimidir. Xəstəlikdən sonra Anna kimi onun da saçlarını tökülməsin deyə keçəl qırxmışdılar. Saçları uzanana qədər o başına ləçək bağlayırdı.

## BEŞİNCİ HİSSƏ

### I FƏSİL

Tolstoy da toyundan əvvəl eynən Levin kimi pravoslav kilsəsinin təlimlərinə inanmırdı və çox güman ki, toydan əvvəl mütləq sayılan etirafında bu haqda keşişə danışmışdı.

### II FƏSİL

Tolstoy da eynən Levin kimi öz toyuna təmiz köynəyinin olmaması səbəbindən gecikmişdi. Bu haqda T.A.Kuzminskaya xatirələrində söhbət açır.

### IV-VI FƏSİLLƏR

Levinin toyunun təsvirlərində Tolstoy öz evlənməyini xatırlayır. Bu mənada romanın bir variantındakı təsvir daha qabarıqdır: "Levin "İndicə nişanlanacaq Allah qulunun" duasını eşidir. Qaralamada üstündən xətt çəkilmiş və "Konstatin"lə əvəz olunmuş "Lev" sözü var.

### IX-XII FƏSİLLƏR

Rəssam Mixaylovun müəyyən xüsusiyyətləri rəssam I.N.Kramskoyu (1837-1887) xatırladır. Kramskoy 1872-ci ildə Yasnaya Polyanaya gəlmiş, Tolstoyun iki portretini çəkmişdi. Həmin müddətdə o, Tolstoyla çox söhbətləşirdi. Mixaylovun "Pilatın qarşısında İsa" əsərindəki realizmi həmin dövr üçün rəssamlıqda yeni bir cərəyan idi. Yeri gəlmişkən, bu, Kramskoyun "İsa səhrada" əsərinə də aiddir. Mixaylovla Qolenişev arasındakı söhbətin mövzusu da elə budur.

### XIV FƏSİL

"Ümumiyyətlə, Levinin çox şey gözlədiyi bu bal ayı, yəni ki, toydan sonrakı bir ay nəinki bal olmadı, hətta onların hər ikisinin xatirəsində ömürlərinin ən ağır, ən alçaldıcı dövrü kimi qaldı". Eynən bunları Tolstoy da dəfələrlə öz toyundan sonra yaşadıqları ilə bağlı danışmışdı.

### XVI FƏSİL

Dolli Sarmatskilərə Qrişa və Tanyanı uşaq balına aparırdı; Tanya markiza geyimində idi. Bu mənə 70-ci illərin əvvəllərində anamın məni markiza, bacım Tanyaya isə markiz paltarı geyindirdiyini və bu kostyumlarda fiqurlarla necə polka oynamağı öyrətməsini xatırlatdı.

### XVII FƏSİL

Nikolay Levinin ölümünü təsvir edəndə Tolstoy qardaşı Dmitriyin (22 yanvar 1856-cı ildə vəfat edib) son günlərini xatırlayır. Bunu daha geniş şəkildə "Xatirələr"də də yazıb. O həm də 1860-cı ildə dünyasını dəyişən böyük qardaşı Nikolayı da xatırlayır. Lev Nikolayeviç Dmitriyin ölümünü görməyib, ondan bir neçə gün əvvəl artıq çıxıb getmişdi. Nikolaysa onun gözləri önündə dünyasını dəyişib.

Nikolay Levinin ölümqabağı dediyi sözlərsə, yuxarıda qeyd edildiyi kimi, Kiselyovun ölübqabağı dediyiklərini xatırladır.

### XXIV FƏSİL

"Təbriketmə bitdi". Yenidən mükafatlandırılan məmurların təbriketmə mərasimi Qış sarayında keçirildiyi nəzərdə tutulur. Bu qəbulda bütün xanımlar, hətta ən yaşlıları belə dekalte paltarlarda olmalı idi. Təbii ki, bu cür libas qrafiniya Lidiya İvanovnanın yaşına uyğun deyildi. Və o, gülünc görsənməməkdən ötrü müəyyən xırda hiyləgərliklərə əl atmışdı.

**Ardı var**

**Rus dilindən tərcümə edən: Xanım Aydın**